Schweizerische Eidgenossenschaft
Confédération suisse
Confederazione Svizzera
Confederaziun svizra

**Embassy of Switzerland to the Republic of Azerbaijan and Turkmenistan**

Turizm

# Viza məlumat vərəqəsi

Tələb edilən sənədlər

- ☐ Tam şəkildə doldurulmuş və ərizəçi tərəfindən şəxsən imzalanmış 1 ədəd viza üçün ərizə forması.

- ☐ Etibarlı pasportun orijinalı və surəti (1-ci, 2-ci və viza və ya möhür olan bütün səhifələrin süréti).Pasport planlaşdırılmış qalma müddətindən azı 3 ay müddətinə etibarlı və son 10 ildə çap olunmalıdır.

- ☐ Yaxın vaxtlarda çəkilmiş 2 ədəd ağ fonda fotoşəkil (veb-saytda izahata baxın).

- ☐ Hazırki bank hesabınızdan son 3 və ya 6 ay üzrə çıxarış / kredit kartınızdan çıxarış / məvacib aldığınızı təsdiq edən sənəd və ya maliyyə vəziyyətinizi təsdiq edən digər sənədlər / nəqliyyat vasitəsinə və ya daşınmaz mülkiyyətə sahibliyinizi təsdiq edən sənədlər.

- ☐ Bütün Şengen ölkələrində və bütün səyyahət müddətində etibarlı olan ən azı 30 000 Avro və ya 50 000 ABŞ dolları miqdarında səyyahət sığortası.

- ☐ İsveçrəyə səyyahətinizi təsdiq edən sənədlər: ( öncədən ödənilmiş mehmanxana rezervasiyası, nəqliyyat vasitəsi, sifariş edilən səyyahət turu, səyyahət müddəti və sair)

- ☐ Aşağıdakı məlumatları özündə ehtiva edən iş yerindən məşğulluğunuzu təsdiq edən arayış (İsveçrə dillərindın birinə və ya ingilis dilinə tərcümə):
  - Şirkətin adı və əlaqə detalları (ünvan, e-mail, telefon nömrəsi)
  - məvacib, işə başladığınız tarix, vəzifəniz

  *Özəl şirkətləri olan şəxslər və ya freelans işləyənlər ticarət qeydiyyatı haqda sənəd təqdim etməlidir*

  *Tələbələr: Məktəb və ya ali məktəbdən arayış və valideyyinlərin əmək fəaliyyətini təsdiq edən sənəd.*

- ☐ İsveçrəyə səyyahətinizi təsdiq edən dəlillər/sənədlər: (öncədən ödənilmiş mehmanxana rezervasiyasının təsdiqi, nəqliyyat vasitəsi, sifariş edilən səyyahət turu, səyyahət müddəti və sair)

- ☐ Ailəli şəxslər üçün nikah haqda şəhadətnamə, uşaqlar üçün ilk dəfə olduqda doğum haqda şəhadətnamənin orijinalı və surəti (İsveçrə dillərindən birinə və ya ingilis dilinə tərcümə).

- ☐ Viza işləmələri üçün rüsum (Bax viza rüsumu bölməsinə). Viza üçün rüsum yalnız AZN-lə ödənilir.

*Sənədlərə ilkin baxış keçirdikdən sonra, Səfirlik lazım gəldikdə əlavə sənədlərin tələb edilməsi hüququnu özündə saxlayır. Ərizə forması və əlavə sənədlər ərizəçi tərəfindən Səfirliyə **şəxsən** Bazar ertəsindən Cümə axşamına qədər, saat 09.00-dan 12.00-a qədər əvvəlcədən növbə almaqla təqdim edilməlidi 12 yaşa qədər uşaqlar üçün ayrıca növbə təyin etməyə ehtiyac yoxdur. 10 və daha artıq nəfərlik qrup səfirliklə əlaqə saxlamalıdır. Nəzərə alın ki, **viza üçün ərizə ancaq bütün lazımi sənədlər tam şəkildə təqdim edildikdə qəbul olunur. Sənədlərə baxılma müddəti ərizənin tam şəkildə qəbul olunduğu gündən etibarən 10 iş günüdür. Sənədlər planlaşdırılan səfər tarixindən ən azı 15 gün öncə təqdim edilməlidir.***
*Növbə www.swiss-visa.ch saytı vasitəsi ilə təyin edilir. Həmin sayt vasitəsi ilə ərizə formasının qeydiyyatı da mümkündür.*
*Səfirlik heç bir **kənar** qurum və ya xidmət göstərən təşkilatlarla əməkdaşlıq etmir.*



Viza şöbəsinin iş vaxtı: Bazar Ertəsi-Cümə Ax.amı 09.30-11.30
Böyük Qala 9, İçəri, Şəhər
AZ-1004 Baku / Azərbaycan
Telephone: +994 12 437 38 50, Fax: +994 12 437 38 51
bku.visa@eda.admin.ch, www.eda.admin.ch/baku